**Hazırda dünyada dərin iqtisadi və maliyyə böhranı davam edir. Avrasiya məkanında bu problem daha da ciddi vəziyyət alıb. Azərbaycan iqtisadiyyatını isə dünyada gedən mənfi proseslərdən maksimum dərəcədə qorumaq üçün ciddi tədbirlər həyata keçirilir. Bununla da ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi inkişafı təmin olunur.**

***Biz öz siyasətimizi elə aparmalıyıq ki, iqtisadiyyatın bütün sahələri, ilk növbədə, qeyri-neft sənayesi inkişaf etsin.Yalnız bu yolla biz Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkəyə çevirə bilərik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Bu gün Azərbaycanda qeyri-neft sənayesinin inkişafı iqtisadi siyasətin prioritetlərindəndir



Bu gün dünyada neftin qiyməti kəskin şəkildə aşağı düşüb. Ancaq bu, ölkəmizin dinamik inkişafına öz mənfi təsirini göstərə bilməyib. Çünki qeyri-neft sektorunun yüksəlişinə xüsusi önəm verilməsi, şaxələndirmə siyasəti, bununla bağlı həyata keçirilən tədbirlər Azərbaycanın bu vəziyyətdən minimum itkilərlə çıxmasına münbit şərait yaradıb. Şübhəsiz, dünyada neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi gəlirləri də azaldıb. Bununla bağlı Prezident İlham Əliyev deyib: "Neftin qiyməti kəskin şəkildə aşağı düşüb. Ancaq biz çalışırıq və çalışacağıq ki, Azərbaycan xalqı bundan əziyyət çəkməsin. Bütün sosial proqramlar, sosial infrastruktur layihələri icra edilir və insanların təhlükəsizliyi, sosial müdafiəsi təmin olunur...".

Son illərdə ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən qeyri-neft sənayesinə xüsusi önəm verilib. Texnoparkların, yeni sənaye müəssisələrinin qurulması davam etdirilib, ixracyönümlü sənaye məhsullarının istehsalı genişləndirilib, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaranması xüsusi diqqətdə saxlanılıb. Bütün bunlar isə ölkəmizin gələcək inkişafını sürətləndirəcək, neft-qaz amilindən asılılığı daha da azaldacaq və ölkə iqtisadiyyatının dayanıqlı şəkildə inkişafını müəyyən edəcək.

Qeyri-neft sənayesinin sürətli yüksəlişi həm də daxili investisiyaların həcminin artımında özünü göstərib. Bir sıra dövlətlərin təcrübəsində uğurla sınaqdan çıxan, özünü doğruldan bu iqtisadi strategiya neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsini, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılmasını nəzərdə tutur. İqtisadiyyatın bütün sahələrinin inkişafı həm də makroiqtisadi sabitliyin qorunub saxlanılması və maliyyə təhlükəsizliyinin təmini baxımından vacib əhəmiyyət kəsb edir.

Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb, sənaye məhsulları istehsalının həcmi 3 dəfəyə yaxın artıb. Bundan başqa, rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, yeni iş yerləri açılıb, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub.

Qeyri-neft sənayesinin inkişafına mühüm təsir göstərəcək sənaye məhəllələrinin yaradılması da bu gün diqqət mərkəzində saxlanılır. Xatırladaq ki, yaxın və uzunmüddətli perspektivdə texnoparkların inkişafını stimullaşdırmaq üçün ölkənin vergi qanunvericiliyində sənaye və texnologiyalar parkında çalışan fiziki və hüquqi şəxslərə, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 illik güzəştlər nəzərdə tutulub.

Prezident İlham Əliyev deyib ki, sənayenin inkişafı ilə bağlı hazırda texnoparklar yaradılır, dövlət burada da öz üzərinə böyük məsuliyyət götürür, böyük maliyyə töhfəsini verir. Çünki texnoparkların yaradılması, infrastrukturun qurulması, yollar çəkilməsi dövlət hesabına olan məsələlərdir. Bütün bunlar dövlət büdcəsi hesabına özəl sektorun səmərəli fəaliyyəti məqsədilə həyata keçirilir.

"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın əsas istiqamətlərindən biri də sənaye və texnologiyalar parklarının, eləcə də sənaye məhəllələrinin yaradılmasıdır. Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları ilə 2011-ci ildə Sumqayıt Kimya Sənaye Parkı və Balaxanı Sənaye Parkı, 2012-ci ildə Yüksək Texnologiyalar Parkı təşkil edilib. Görülən işlərin davamı kimi 2015-ci ildə də ölkədə yeni sənaye zonalarının yaradılması ilə bağlı tədbirlər həyata keçirilib. Hazırda isə Mingəçevir Sənaye Parkı, Mingəçevir Yüksək Texnologiyalar Parkı, Qaradağ Sənaye Parkı və Neftçala Sənaye Məhəlləsi yaradılır.

Bu gün İqtisadiyyat Nazirliyi tərəfindən sənaye parklarına yeni investorların cəlb olunması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Artıq Sumqayıt Kimya Sənaye Parkının və Balaxanı Sənaye Parkının hər birində 4 rezident, Qaradağ Sənaye Parkında 1 rezident, Neftçala Sənaye Məhəlləsində isə 2 iştirakçı fəaliyyət göstərmək üçün qeydiyyatdan keçib.

Təkcə Sumqayıt Kimya Sənaye Parkında rezidentlər tərəfindən istehsal müəssisələrinin qurulmasına 1 milyard manatdan çox investisiya yatırılması nəzərdə tutulur. Parkın rezidenti "Azertexnolayn" MMC tərəfindən dəyəri 45 milyon ABŞ dolları olan 60 min ton boru məhsulunun Türkmənistana ixracı üzrə müqavilə bağlanıb.

Qaradağ Sənaye Parkının Prezidenti olan Bakı Gəmiqayırma Zavodu tərəfindən müqavilə dəyəri 40 milyon ABŞ dolları olan sifariş əsasında yarımdalma qazma qurğusunun pantonlarının tikintisi başa çatdırılaraq təhvil verilib. Hazırda isə ümumi dəyəri 404 milyon ABŞ dollarından çox olan iki sifariş əsasında sualtı tikinti gəmisinin və üç ədəd 80 nəfərlik sərnişin gəmisinin inşası həyata keçirilir.

Tullantıların təkrar emalı sahəsində regionda ilk sənaye parkı olan və ölkəmizdə "yaşıl biznes"in inkişafında əhəmiyyətli rola malik Balaxanı Sənaye Parkına rezidentlər tərəfindən ilkin mərhələdə 10 milyon manatdan artıq investisiya yatırımı nəzərdə tutulur.

"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda Gəncə şəhərində sənaye parkının yaradılması, infrastrukturunun formalaşdırılması və fəaliyyətinin təşkili ilə bağlı tədbirlərin görülməsi də nəzərdə tutulur. Bununla əlaqədar şəhərdə metallurgiya sənayesi üzrə ixtisaslaşmış sənaye parkının yaradılması planlaşdırılır.

Prezident İlham Əliyev ölkəmizdə texnologiya parkları ilə yanaşı, sənaye klasterlərinin yaradılmasının vacibliyinə də diqqət çəkərək deyib: "Bu da dünyada uğur gətirən bir təcrübədir. İnkişaf etmiş ölkələrdə bu, vardır. Bütün məhsulun tsikli bir yerdə cəmləşməlidir – xüsusilə bu layihənin icrası nəticəsində poladtökmə, metallurgiya kombinatının, alüminium sənayesinin inkişafı sahəsində biz bütün bu zənciri – istehsal, emal, kiçik və orta sahibkarlığın inkişafını təmin etməliyik ki, Azərbaycanda son məhsul buraxılsın. Hesab edirəm ki, bu istiqamətdə əlavə tədbirlər də görülməlidir".

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatın, o cümlədən sənayenin inkişafında klasterlərin rolu böyükdür. Bu baxımdan, Sumqayıt Kimya Sənaye Parkı da daxil olmaqla, kimya sənayesi üzrə klasterin formalaşması üçün ölkəmizdə geniş imkanlar var. Sumqayıt Kimya Sənaye Parkında həyata keçirilən "SOCAR Polymer" layihəsi çərçivəsində ölkənin polimer materiallarına olan tələbatının ödənilməsi, rəqabətqabiliyyətli məhsul istehsalı və ixrac potensialının artırılması nəzərdə tutulur. "SOCAR Polymer" layihəsi başa çatdıqdan sonra zavod bu sahədə əsas xammal təchizatçısı kimi çıxış edəcək.

Dövlət başçısı vurğulayıb ki, bu gün Azərbaycanın qarşısında duran ən mühüm strateji məqsəd ölkəmizin müstəqilliyini bundan sonra da gücləndirmək və respublikamızı dünyanın ən inkişaf etmiş və rəqabətədavamlı dövlətləri səviyyəsinə yüksəltməkdir. Buna görə də müasir dünyanın çağırışları da nəzərə alınmaqla, regionlardakı sürətli inkişaf davam etdiriləcəkdir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın və digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına şərait yaradacaq, ictimai xidmətlər və sosial infrastruktur daha da təkmilləşəcək və Azərbaycan dünyanın aparıcı ölkələri sırasına çıxacaqdır.

Azərbaycan 2020-ci ilə qədər biznes mühiti və iqtisadiyyatın rəqabətqabiliyyətliliyi göstəricisi üzrə 30 ən qabaqcıl ölkələr sırasına daxil olacaq, qeyri-neft ixracı adambaşına 1000 ABŞ dollarına çatdırılacaq.

Bu, İqtisadiyyat və Sənaye Nazirliyinin təsisçisi olduğu Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) ictimai müzakirəyə çıxardığı "Xarici investisiyalar və qeyri-neft ixracının təşviqi strategiyası (2015-2020)" layihəsində əksini tapıb.

Adıçəkilən strategiyanın reallaşdırılması nəticəsində Azərbaycan biznes mühiti və iqtisadiyyatın rəqabətqabiliyyətliliyi göstəricisi üzrə 30 ən qabaqcıl ölkələr sırasına daxil olacaq, ölkənin qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb edilməsinin intensivləşdirilməsi məqsədilə stimullaşdırıcı mexanizmlər tətbiq olunacaq, qeyri-neft sektorunun inkişafına xidmət edən və müasir tələblərə cavab verən istehsal infrastrukturunun genişləndirilməsi üçün birbaşa xarici investisiyalar cəlb ediləcək, qeyri-neft ixracı adambaşına 1000 ABŞ dollarına çatdırılacaqdır.

Strategiyanın 2015-2017 və 2018-2020-ci illər olmaqla iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Sənəddə nəzərdə tutulan tədbirlərin reallaşdırılması üçün hər mərhələ üzrə fəaliyyət planı hazırlanacaq. Bu işə yerli mütəxəssislərlə yanaşı, beynəlxalq ekspertlər də cəlb olunacaq. Fəaliyyət planı seçilmiş prioritetləri, qəbulu zəruri olan dövlət proqramlarını və normativ-hüquqi aktları, icraya məsul və tərəfdaş qurumları, hədəfləri və icra dövrünü müəyyən edir.

"Xarici investisiyalar və qeyri-neft ixracının təşviqi strategiyası (2015-2020)" layihəsi zərurətini ortaya çıxaran əsas amillər sırasında son illərdə Azərbaycanın iqtisadi qüdrətinin artması, həyata keçirilən diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlamasıdır. Xatırladaq ki, bütün bu sadalananlar təbii ki, ölkənin xarici ticarətində də müsbət meyillərə təkan verib. Belə ki, xarici ticarətin coğrafiyası genişlənmiş, onun əmtəə strukturu təkmilləşib. Son 12 ildə ölkəmizin xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, o cümlədən qeyri-neft ixracı 4,7 dəfə, idxal isə 4,1 dəfə artıb.

Həyata keçirilən iqtisadi siyasətin ən mühüm istiqamətlərindən biri xarici investisiyaların, qabaqcıl texnologiyaların, idarəetmə təcrübəsinin cəlb olunmasıdır. Ölkədə bərqərar olmuş siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksəkixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici investisiyalar üçün ən cəlbedici ölkələrdən birinə çevirib. Bugünədək Azərbaycan Respublikası hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 50-dən çox saziş imzalanıb. Məhz bunun nəticəsidir ki, təkcə ötən il ölkə iqtisadiyyatına 10,5 milyard dollar məbləğində xarici investisiya qoyulub. Bu investisiyaların yarıdan çoxu qeyri-neft sektoruna yönəldilib.

Antiböhran tədbirlərinin ana xəttində yenə də sahibkarlıq fəaliyyətinə mane olan süni maneələrin aradan qaldırılması və qeyri-neft sektorunun inkişaf etdirilməsi məsələləri dayanır. Etiraf etməliyik ki, hazırda respublikamızda inkişaf dövrünü yaşayan qeyri-neft sektoru neftin qiymətinin 4 dəfəyədək aşağı düşdüyü bir şəraitdə ölkənin mövcud tələbatını təmin etmək iqtidarında deyildir. Məhz buna görə də dövlət başçısı hesab edir ki, hazırkı dövrdə bir tərəfdən yaranmış vəziyyətin ölkəyə mənfi təsirinin qarşısını almaq üçün çevik tədbirlər həyata keçirilməli, digər tərəfdən də prioritet sahə hesab olunan qeyri-neft sektorunun daha sürətli inkişafını təmin etmək üçün əlavə təsirli mexanizmlər işə salınmalıdır.

Ölkə Prezidenti cənab İlham Əliyev cari ildə qarşıda duran vəzifələrdən danışarkən demişdir: "Bu il ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən sənaye sahəsinə daha da böyük diqqət yetiriləcəkdir. Texnoparklar, yeni sənaye müəssisələri, ixracyönümlü sənaye məhsullarının istehsalı, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaranması – bütün bu işlər ölkəmizin gələcək inkişafını təmin edəcək, neft-qaz amilindən asılılığı daha da azaldacaq və ölkə iqtisadiyyatının dayanıqlı şəkildə inkişafını müəyyən edəcəkdir".

Azərbaycan iqtisadiyyatının bir çox sahələrində, xüsusilə də qeyri-neft sektorunda son illər nəzərə çarpan yüksəliş bir tərəfdən ölkəmizin geniş inkişaf potensialını əks etdirir, digər tərəfdən isə bu potensialdan tam istifadə olunması məqsədilə əlavə tədbirlərin həyata keçirilməsi zərurətini ortaya qoyur. Yaxın illərdə qarşıda duran əsas məsələlərdən biri iqtisadiyyatda karbohidrogen ehtiyatlarından asılılığı aradan qaldırmaq və iqtisadi artımı qeyri-neft sektorunun, o cümlədən onun aparıcı tərkib hissəsi olan sənaye sektorunun hesabına təmin etməkdir. Sənayenin inkişafının innovasiyalar əsasında təmin olunması, texnoparkların sənayeləşmədə strateji layihələr kimi yer alması Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan: 2020 – gələcəyə baxış" İnkişaf Konsepsiyasında da başlıca hədəflər sırasındadır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***